# Qəbələ sürətli inkişafın yeni mərhələsində

## Çıxışlar

(Əvvəli 4-cü səhifədə).

**Kamal ƏFƏNDİYEV, "Aqrokompleks Qəbələ" MMC-də təsərrüfat rəhbəri.**



2014-cü ilin sonunda kompleksdə 1487 baş heyvan olmuşdur, o cümlədən il ərzində orta çəkisi 550 kq olmaqla 279 baş diri çəkidə erkək dana satılmış, 204 baş düyə isə süni mayalanma ilə boğaz qalmışdır. Təsərrüfatda gündəlik orta hesabla 11.000 litr, il ərzində isə 3.802.000 litr süd sağılmışdır. 2014-ci ildə heyvanların yem bazasının təşkili üçün 1250 hektar əkin sahəsindən istifadə olunmuşdur. İlin əkin yekunlarına əsasən 1 hektar buğda sahəsindən 34 sentner, arpa sahəsindən 26 sentner, vələmir sahəsindən 23 sentner və qarğıdalı sahəsindən 75 sentner məhsul götürülmüşdür. 2015-ci ildə heyvanların artım tendensiyasını qabaqcadan nəzərə alaraq 1586 hektar sahədə əkin işləri görülməsi planlaşdırılmışdır. Halhazırda komleksdə 132 nəfər vətəndaş daimi iş ilə təmin olunmuşdur.

Hamımıza məlum olduğu kimi, cənab Prezident İlham Əliyev tərəfindən verilmiş sərəncam ilə 2015-ci il "Kənd təsərrüfatı ili" elan edilmişdir.

Məlum olduğu kimi 2007-ci ilin yanvar ayından etibarən, cənab Prezidentin fərmanı ilə, 1 ha əkin üçün yanacaq və motor yağlarına görə 40 manat, o cümlədən buğda və çəltik əkininin 1 ha sahəsinə görə 40 manat subsidsiya verilməsinə başlanmışdır. Eləcədə son dövrlərdə Aqrolizink xətti ilə alınmış texnikaların (alış məbləğinin) dəyərinin 40% azaldılması və gübrələrə tətbiq olunmuş güzəştin 50%-dən 70% -ə qaldırılması-Ailə və fermer təsərrüfatlarına böyük stimul vermişdir.

Çıxışımın sonunda kollektivimiz adından cənab Prezident İlham Əliyevə aqrar sahəyə göstərdiyi böyük diqqətə görə minnətdarlığımızı bildiririk.

**Səadət SƏMƏDZADƏ, ictimai fəal gənc.**

Müstəqil dövlətimizdə gənc nəsil xüsusi diqqət və qayğı ilə əhatə edilmişdir. Ölkə Prezidenti möhtərəm Cənab İlham Əliyev başda olmaqla Dövlətimiz tərəfindən uğurla həyata keçirilən gənclər siyasəti bu təbəqənin nümayəndələrinin ölkəmizin ictimai-siyasi və digər sahələrində fəaliyyətlərinin gündən-günə artmasına səbəb olmuşdur. İlham Əliyev tərəfindən «Azərbaycan Gəncliyi Dövlət Proqramı (2011-2015-ci illər)» təsdiq edildi, gənc ailələrə güzəştli şəkildə ipoteka kreditləri verilməyə başlandı, bütün təbəqədən olan savadlı gənclərin dövlət hesabına xaricdə təhsil almasına böük imkanlar yaradıldı ki, bu da gənclərin ölkəmizə yüksək peşəkar mütəxəssislər kimi dönməsinə gətirib çıxarır.

Təmsil etdiyim Qəbələ gəncləri adından onu da qeyd etməliyəm ki, bu gün Respublikamızın hər yerində olduğu kimi gündən-günə yeniləşən, gözəlləşən rayonumuzun ictimai-siyasi həyatında gənc nəslin rolu böyükdür. Rayon əhalisinin əksəriyyətini gənclər təşkil edir və gənclər say etibarı ilə çoxluq təşkil edirsə, deməli cəmiyyətdə onların yeri və rolu da çoxdur. Ölkə başçısının gənclərə yetirdiyi diqqət və qayğının nəticəsidir ki, bu gün rayon rəhbərliyi tərəfindən gənclər məsul vəzifələrə irəli çəkilir, onlara etimad göstərilir, gənclərin məşğulluğu və asudə vaxtlarının təşkili daim diqqətdə saxlanılır, yeni açılan iş yerlərində ilk növbədə gənc kadrlar işlə təmin edilir.



Gənclərlə iş sahəsində olduğu kimi idman sahəsində də həyata keçirilən dövlət siyasəti, idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, nəhəng idman infrastrukturun yaradılması nəticəsində ölkəmiz beynəlxalq idman yarışlarının keçirildiyi məkana çevrilərək dünyada idman ölkəsi kimi tanınmaqdadır. Buna bariz misal olaraq bu ilin iyun ayında baş tutacaq birinci Avropa Olimpiya Oyunlarının Bakıda keçiriləcəyini göstərmək istərdim.

Rayonumuzda da tikilib gənclərin ixtiyarına verilən istirahət və sağlamlıq obyektləri, «Tufandağ» yay-qış istirahət kompleksi, müasir idman qurğuları, olimpiya idman kompleksi, Qəbələ Futbol Klubunun bazası, atıcılıq kompleksi, məktəblərdə yeni tikilmiş və əsaslı təmir edmlmiş idman zalları güclü və sağlam gənc nəslin yetişdirilməsində və idmanın kütləviliyinin təmin edilməsində mühüm rol oynayır.

Hər bir Azərbaycan gənci onlara dövlət tərəfindən göstərilən etimadı doğrultmalı, ölkənin inkişafı naminə daha çox çalışmalı və qazandıqları bilik və bacarığı əməli işə sərf etməlidir.

# Azərbaycanda ilk dəfə olaraq Qəbələ rayonundakı "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksində dağ-xizək idman növü üzrə ödənişsiz təlimlərə başlanılıb

***Redaksiyamız "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksinin direktoru Əvəz Nəbiyevdən məktəblilərn idmanın dağ-xizək növünə cəlb edilməsi ilə bağlı oxucularımıza məlumat verməyi xahiş etmişdir.***

***Aşağıda Ə. Nəbiyevin şərhini dərc edirik.***



Kompleksin direktoru Əvəz Nəbiyev şərhində bildirib ki, orta məktəb şagirdlərinin dağ-xizək idman növünə marağının artırılması, xizəkçiliyin sirlərinə yiyələnməsi və onların peşəkar idmançı kimi yetişdirilməsi üçün kompleksdə hər cür şərait yaradılıb. Bu xizək mövsümündə Qəbələ və ətraf rayonların şagirdləri tərtib edilmiş cədvələ uyğun olaraq kompleksdə göstərilən kanat və xizək xidmətlərindən bəhrələnəcəklər.

Türkiyədən dəvət olunmuş təlimçilər kompleksin yeni xizəkçilik məktəbində yeniyetmə qız və oğlanlara 50 dəqiqə ərzində buz üstə xizəklə düz sürüşməyi, sağa və ya sola dönməyi və dayanmağı öyrədirlər. Şagirdlərin məktəbdən kompleksə gətirilməsi və geri qaytarılması üçün avtobuslar təşkil olunur, onlar xizək geyim formaları ilə təmin edilirlər. Kompleksdə şagirdlərin təhlükəsizliyinin təmin olunması məqsədilə patrul və sağlamlığı üçün həkim qrupu fəaliyyət göstərir. Şagirdlərin böyük marağına səbəb olan bu təmənnasız xizəkçilik təlimləri martın sonunadək davam etdiriləcək.

Əvəz Nəbiyev deyib ki, ölkəmizdə qış turizminin inkişafına kömək məqsədilə keçirilən bu təlimləri kompleksə dəvət olunmuş Türkiyənin 6 və Azərbaycanın 2 peşəkar təlimçisi həyata keçirir. Təlimlərdə iştirak edən yeniyetmə və gənclər arasında gələcəkdə müxtəlif yarışların təşkil edilməsi və onların yerli və beynəlxalq turnirlərdə iştirakının təmin olunması nəzərdə tutulur.

Bölgədə ən çox turist qəbul edən "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksinin tikintisində işlərin birinci mərhələsi başa çatdırılıb və hazırda ikinci mərhələ üzrə inşaat işləri görülür. Ötən ilin yanvarında Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən kompleksin 4 kanat xəttindən 3-də və 10 xizək yolundan 5-də tikinti işləri başa çatdırılıb, turistlərin istirahətinin təşkili üçün hər cür şəraiti olan restoranlar və beşulduzlu "Tufandağ" oteli açılıb, bütün dağ-xizək yolu süni qaryağdıran generasiya sistemi ilə təchiz edilib və gün ərzində kompleksdə 3 min nəfərə xidmət göstərilməsi üçün şərait yaradılıb.

Direktorun sözlərinə görə, "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksinin xidmətlərindən ötən bir il ərzində 140 min nəfər yerli və xarici qonaq bəhrələnib. Qəbələdə qış turizminin inkişafına təkan verən bu kompleksdə yeni xizək mövsümü başlayandan bəri artıq Bakıdan, respublikanın müxtəlif şəhər və rayonlarından, xarici ölkələrdən 10 minə yaxın xizək həvəskarı Qəbələyə gəlib. Hazırda müxtəlif turizm şirkətləri tərəfindən "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksinə xizəkçiliklə əlaqədar xüsusi turlar təşkil edilir. Turistlər əvvəlcə kanat yolu ilə uca dağların zirvəsinə qalxaraq oradan Qəbələ şəhərini, Duruca kəndini və ətrafdakı çayları, meşələri, gözəl mənzərəni seyr edir, xatirə şəkli çəkdirirlər. Turistlər bir nəfər üçün 10 manat pul ödəməklə kompleksin 3 kanat yolu ilə dağlarda 5 kilometr məsafə qət edə bilirlər. Qonaqlar, eyni zamanda, 1660 metr hündürlüyə qalxaraq dağın zirvəsindəki kafe və restoran xidmətlərindən də bəhrələnmək imkanı əldə edirlər.

Turistlər xizəkdən istifadə etmək üçün isə yarım gün üçün 20 manat ödəməli olurlar. Hazırda xizək yolunda 5 sürüşmə zolağı turistlərin istifadəsinə verilib. Ötən qış mövsümündə isə cəmi bir sürüşmə zolağından istifadə olunurdu.

**Foto S. Umuyevindir.**